# “Konstitusiya və Suverenlik İli” çərçivəsində vətəndaşlara hüquqi yardım



**Azərbaycan Respublikası Prezidentinin 2025-ci ili "Konstitusiya və Suverenlik İli" elan etməsi ilə əlaqədar həyata keçirilən tədbirlər çərçivəsində Azərbaycan Respublikasının Vəkillər Kollegiyası (ARVK) tərəfindən aztəminatlı və həssas əhali qruplarına yönəlmiş sosial hüquqi aksiyalar davam etdirilir.**

Mayın 13-də ARVK-nın və Zərdab Rayon İcra Hakimiyyətinin (RİH) birgə təşkilatçılığı ilə rayonda vətəndaşlara pulsuz hüquqi yardım göstərilib. Heydər Əliyev Mərkəzində keçirilən aksiya zamanı "Mirzəyev və Partnyorları" Vəkil Bürosunun təcrübəli vəkilləri tərəfindən sakinlərin hüquqi müraciətləri dinlənilib, fərdi qaydada qəbul təşkil olunub. Vətəndaşlar ailə hüququ, mülki mübahisələr, əmək münasibətləri, sosial təminat və digər hüquqi məsələlər üzrə ətraflı məsləhətlərlə təmin ediliblər.

Vəkillər tərəfindən vətəndaşlara hüquqlarının müdafiəsi yolları, mövcud qanunvericiliyin tətbiqi və hüquqi prosedurlar barədə izahatlar verilib, həmçinin onlara zəruri istiqamətlər üzrə yazılı tövsiyələr təqdim olunub.

**Nurlan ABDALOV,**
**"Respublika".**

Respublika .- 2025.- 14 may (№98).- S.14.